# KƏRİMOV KƏRİM MƏHƏMMƏD OĞLU



Kərimov Kərim 2 iyul 1971-ci ildə Şərur rayonunun Qarahəsənli kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Tümendə Ali Hərbi Mühəndis Komandirləri Məktəbinə qəbul olunmuşdur. Qarabağ hadisələri başlayanda K.Kərimov özü kimi 15 nəfər azərbaycanlı kursantı da ətrafına toplayıb Azərbaycana qayıtmışdır. Təhsilini Bakı Ali Birləşmiş Komandirlər Məktəbində davam etdirmiş, Biləcəridə təlim keçdikdən sonra aprelin 15-də Goranboy rayonuna yollanmışdır. İlk gündən "Tümendən gələn zabit" kimi tanınan 21 yaşlı K.Kərimov istehkamçılar bölməsinə komandir təyin edilmişdir. Tap-Qaraqoyunlu kəndi ətrafında minalanmış sahələrin zərərsizləşdirilməsi əməliyyatında Kərim də iştirak etmişdir. 1992-ci il mayın 5-də Kərim bir neçə döyüş yoldaşı ilə Talış təpəsinə qalxır, 40 nəfərə yaxın erməni məhv edərək Talış yüksəkliyini ələ keçirir. Səhər saat 5 radələrində Talış kəndindən baş qaldıran düşmən güclü hərbi texnikanın köməyi ilə onları mühasirəyə salır. Kərim öz avtomatını yoldaşına verərək özü qumbaraatanla hücuma keçir. Düşmənin bir döyüş maşını vurulur. İkinci maşına atəş açanda artıq Kərim yaralanmışdı. O, əsir düşməmək üçün odlu siqnal fişəngini sinəsinə sıxır və qəhrəmancasına şəhid olur. Onun cəsədi iyunun 16-da Talış kəndi azad olunduqdan sonra geri qaytarılıb və iyunun 17-də doğma kəndi Qarahəsənlidə dəfn olunub. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 11 sentyabr 1992-ci il tarixli 193 saylı Fərmanı ilə Kərimov Kərim Məhəmməd oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Qarahəsənli kəndində onun büstü qoyulmuşdur. Goranboy və Şərur rayonunda adına məktəb və küçə var.